COM/SCHA/REC/001/FINAL

**ALTINCI İCLAS**
*14 Sentyabr 2018, Bişkek*

# KİNO VƏ ANİMASİYA TÜRKDİLLİ ÖLKƏLƏRDƏ TÜRK MƏDƏNİ İRSİNİN HİSSƏLƏRİ KİMİ

Parlament Assambleyası**:**

"Üzv ölkələr arasında informasiya və KİV sahəsində əməkdaşlığın inkişafının əhəmiyyəti" vurğulanan Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının beşinci zirvə görüşünün Astana bəyannaməsini ***nəzərə alaraq***;

Dəyərlərə və bir-birinin milli ənənələrinə qarşılıqlı hörmət mühitində türk tarixi və mədəni irsinin qorunmasına ***çalışaraq***;

TÜRKPA üzv ölkələrində mədəniyyətin nəsil davamlılığının qorunmasına ***yardım edərək***;

TÜRKPA üzv ölkələrinin beynəlxalq imicinin möhkəmləndirilməsində film sənayesinin (animasiya) böyük potensialını ***nəzərə alaraq***;

TÜRKPA üzv ölkələrində vergi və gömrük prosedurlarının sadələşdirilməsi yolu ilə kinematoqrafların (animatorların) işinin təkmilləşdirilməsinə və asanlaşdırılmasına istiqamətlənmiş əməkdaşlıq, məlumat mübadiləsi və birgə fəaliyyətin üstünlüyünü ***dərk edərək***;

Milli parlamentlərə aşağıdakıları tövsiyə edir:

a) kino və animasiyanı türkdilli ölkələrdə sosial-mədəni və ümumi məlumat məkanının inkişaf vasitəsi kimi *qəbul etmək*;

*b)* kino və animasiya sahəsində fəal regional və ikitərəfli əməkdaşlığın genişləndirilməsinə yönəlmiş səylər *(*türkdilli ölkələrdə seminar, praktikum, görüş, festivalların keçirilməsi, birgə layihələr, birgə prodüserlik, birgə distribyusiya və digər bu qəbildən tədbirlər*) həyata keçirmək*;

c) kino və animasiya sahəsində dövlət-özəl tərəfdaşlıq haqqında TÜRKPA üzv ölkələrinin qanunvericiliyi və strateji proqramlarını *araşdırmaq*; kino və animasiya üzrə araşdırma məlumatlarını *ümumiləşdirilmək*;

*d)* türkdilli ölkələr arasında birgə film istehsalı üzrə səyləri *möhkəmləndirmək*, "EurImage" və "Audiovisual Eureka" kimi Avropa təşkilatlarının üzvü kimi Türkiyənin təcrübəsinin öyrənilməsi;

e) TÜRKPA Katibliyində ona müqayisəvi bazanın yaradılması məqsədilə türkdilli ölkələrin qanunvericiliklərinin (elektron və çap versiyada) qovşağının yaradılması qərarını *dəstəkləmək*; kino və animasiya sahəsində hər TÜRKPA üzv dövlətinin qanunvericiliyinin *araşdırılması*;

*f)* Vergi sahəsində kinematoqraf və animatorların normativ qaydalarının *sadələşdirilməsi*; film və animasiya istehsalçılarına vergi güzəştləri sahəsində TÜRKPA üzv ölkələrinin vergi siyasətinə *yenidən baxılması*, gəlir vergisinin ödənişindən qismən azad olunma, satışlarda vergidən azad olunma, pulsuz yerlə təmin olunma və digər istənilən üstünlüklər.

*g)* gömrük prosedurlarında kinematoqraf və animatorlar üçün normativ normaların *sadələşdirilməsi*;

h) TÜRKPA üzv ölkələri ərazisində yüksək keyfiyyətli birgə kino və animasiya istehsalına yardım göstərəcək dördtərəfli Konsepsiyalar haqqında *perspektivdə düşünmək*;

i) beynəlxalq film festivallarında TÜRKPA üzv ölkələrinin beynəlxalq imicinin möhkəmləndirilməsi üçün böyük əməkdaşlıq potensialının *dərk edilməsi*;

j) film sənayesi və animasiya sahəsində mütəxəssis mübadiləsi və onların birgə fəaliyyətinin *təşviqi*;

k) film sənayesi və animasiyanın texniki bazasının möhkəmləndirilməsi və müasirləşdirilməsi üzrə bəzi ümumi proqramların *işlənib hazırlanması*;

l) TÜRKPA üzv ölkələrindən olan kinematoqraf, animator və milli film şirkətləri arasında fərqli dialoqların *təşkil edilməsi*;

m) eşitmə və görmə zəifliyi olan insanlar üçün versiyalar da daxil olmaqla, *bir-birinə* film və animasiyaların tərcümə və dublyajının *təqdim edilməsi*;

n) gənc kinematoqraf və animatorların birgə görüşünün təşkilinə və keçirilməsinə *yardım etmək*; kinematoqrafiya və animasiya sahəsində gənc mütəxəssislərə peşəkar dəstəyin *inkişaf etdirilməsi*;

o) film və animasiya sahəsində TÜRKPA üzv ölkələri arasında əməkdaşlıq prioritetlərinin *müəyyənləşdirilməsi*;

p) animasiya ilə bağlı müəyyən sahələrdə daha güclü təhsil infrastrukturunun yaradılmasına dəstək ehtiyacının *dərk edilməsi*;

q) Türk qurumları (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, TÜRKSOY, Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyət və Miras Fondu) ilə *sıx qarşılıq fəaliyyət*;

r) "Film və animasiya sahəsində TÜRKPA üzv ölkələrinin qanunvericiliyi. Film və animasiya türk mədəni irsinin hissələri kimi" mövzulu Seminarda ekspert rəylərinin praktik səmərəsinin *qiymətləndirilməsi*. Seminar TÜRKPA tərəfindən Qırğızıstan Joqorku Keneşinin dəstəyi ilə 13-14 sentyabr, 2018-ci ildə Bişkekdə keçirilmişdir. Seminar nazirliklərin nümayəndələri, kinematoqraflar və animatorlar arasında əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynamışdır.

s) Forum-platforma vasitəsilə aralarında birbaşa ünsiyyəti təmin etmək, həmçinin TÜRKPA-nın kino və animasiya sahəsində qanunvericiliyə rəhbərlik etməsi məqsədilə TÜRKPA üzv ölkələrinin direktorları və animatorlarının istifadəsi üçün *internet portal yaratmaq;*

t) Türkdilli dövlətlərin kinofestivalının yaradılması ilə bağlı TÜRKPA üzv ölkələrinin film direktorları və animatorlarının mesajlarını TÜRKSOY-a *çatdırmaq;*

u) Türk filmləri və animasiyalarının yayılması üçün *Türkdilli ölkələrin xüsusi ixtisaslaşdırılmış Agentliyinin* yaradılması ilə bağlı TÜRKPA üzv ölkələrinin film direktorları və animatorlarının mesajlarını TÜRKSOY-a *çatdırmaq;*

v) Qırğızıstan animatorları üçün Qazaxıstanda və Qazaxıstan operatorları üçün Qırğızıstanda təcrübə proqramları *təşkil etmək.*